*Vətən müharibəsinin çoxşaxəli əhəmiyyəti bundan ibarətdir – biz həm doğma torpaqlarımızı işğalçılardan azad etdik, düşməni torpaqlarımızdan qovduq, həm də ölkəmizin ərazi bütövlüyünü bərpa etdik. Bütün dünyaya xalqımızın, dövlətimizin qüdrətini göstərdik, xalqımızın əyilməz ruhunu göstərdik. Eyni zamanda, ölkəmizin gələcəyi ilə bağlı strateji hədəflərə çatmaq üçün əməli addımlar ataraq önəmli sənədləri imzaladıq.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

# "Biz güclü iradə, cəsarət göstərərək istədiyimizə nail ola bildik"




***Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında oldular. Səfər çərçivəsində işğaldan azad edilən ərazilərdə təcavüzkar Ermənistan tərəfindən əsl vandalizm aktı törədildiyi, bütün şəhər və kəndlərimizin tamamilə dağıdıldığı, bölgənin ekologiyasına çox ciddi ziyan vurulduğu bir daha müşahidə edilib. Hazırda düşməndən təmizlənən yaşayış sahələrinin yenidən qurulması, bərpası qarşıda duran ən mühüm məsələlərdən biridir. Bu ərazilərdə gerçəkləşdiriləcək abadlıq-quruculuq işlərinin miqyası da, şübhəsiz ki, çox böyükdür.***

Prezident, Ali Baş Komandan İlham Əliyev Güləbird kəndində Azərbaycan bayrağını qaldırdıqdan sonra çıxış edərək, bu barədə ətraflı danışıb. Eyni zamanda, burada gün ərzində bir neçə tədbir keçiriləcəyini, bunun isə düşməndən təmizlənən ərazilərin tezliklə yeni coşğun həyata qayıdacağı məqsədi daşıdığını diqqətə çatdırıb. Dövlətimizin başçısı daha sonra deyib: "Bərpa işləri arasında elektrik enerjisi təchizatı, əlbəttə ki, xüsusi yer tutur. Bu məqsədlə müharibədən dərhal sonra ilk günlərdən biz bu işlərlə məşğul olmağa başlamışıq. İlk növbədə, Şuşa şəhərini elektrik enerjisi ilə təchiz etmək üçün əməli addımlara start verilmişdir və birinci mərhələ başa çatıb. "Azərişıq" artıq Şuşa şəhərinə elektrik xətlərini çəkib. Şuşa şəhərini dayanıqlı elektrik enerjisi ilə təmin etmək və ondan sonra şəhərin inkişafını təmin etmək üçün "Azərenerji" Səhmdar Cəmiyyəti də Şuşa şəhərinə yüksəkgərginlikli xətləri çəkir və Şuşa şəhərində elektrik yarımstansiyası inşa edir".

Azərbaycan Prezidenti nitqində Laçın rayonu işğaldan azad olunandan ay yarım sonra artıq Güləbird kəndində Su Elektrik Stansiyasının istismara verildiyini, bu stansiyanın generasiya gücünün 8 meqavat təşkil etdiyini vurğulayaraq, bununla da ərazidə generasiya güclərinin yarandığını bildirib.

Yeri gəlmişkən, "Güləbird" Su Elektrik Stansiyasının istifadəyə verilməsi tarixi və əlamətdar hadisədir. Bu, işğaldan azad olunan rayonlarda dövlətimizin başçısının iştirakı ilə istifadəyə verilən ilk infrastruktur layihəsidir. Bu stansiya, təxminən, 7 min nəfər əhalinin elektrik enerjisi ilə təminatında mühüm rol oynayacaq. Burada istehsal olunacaq elektrik enerjisi Qubadlı rayonunun Xanlıq kəndini, Laçın rayonunun cənub hissəsini və ərazidə yerləşən digər infrastruktur layihələrini elektrik enerjisi ilə təmin edəcək.

Ölkə rəhbərinin qeyd etdiyi kimi, Kəlbəcər-Laçın zonasında su elektrik stansiyaları üçün təbii şərait çox əlverişlidir və vaxtilə burada bir çox stansiya fəaliyyət göstərib. Lakin mənfur düşmən işğal dövründə həmin stansiyalardan istifadə edib. Ancaq Ermənistan kapitulyasiyadan sonra 20 gün ərzində – dekabrın 1-nə qədər, demək olar ki, bütün bu su elektrik stansiyalarını dağıdıb, avadanlığı aparıb, stansiyaların binalarını xaraba qoyub. O cümlədən, Güləbird Su Elektrik Stansiyası düşmən tərəfindən yararsız hala salınıb.

Dövlətimizin başçısı çıxışında 8 meqavat gücündə olan Güləbird Su Elektrik Stansiyasının azad edilən torpaqlarda istismara verilən birinci elektrik stansiyası olduğunu qeyd edərək, deyib: "Bunun çox böyük əhəmiyyəti, böyük rəmzi mənası var. Biz qayıdırıq bu torpaqlara. Biz Kəlbəcər və Laçın rayonlarında ermənilər tərəfindən uzun illər ərzində qanunsuz istismar edilmiş, onlar tərəfindən dağıdılmış bütün su elektrik stansiyalarını bərpa edəcəyik. Düşmən təkcə Laçın rayonu ərazisində 5 su elektrik stansiyasını dağıdıb. Onların hamısı bərpa ediləcək. Kəlbəcər rayonunun ərazisində isə 12 su elektrik stansiyası yenidən qurulacaq.

*(ardı 2-ci səhifədə)*

# "Biz güclü iradə, cəsarət göstərərək istədiyimizə nail ola bildik"



*(əvvəli 1-ci səhifədə)*

Beləliklə, yalnız Kəlbəcər və Laçın rayonlarında dağıdılmış və bərpa ediləcək stansiyaların generasiya gücü 120 meqavat olacaqdır. Bu, çox böyük generasiya gücüdür. Bu generasiya gücü ilə biz bu əraziləri bərpa edəcəyik, dayanıqlı enerji ilə təmin edəcəyik. Əgər biz nəzərdə tutduğumuz digər layihələrə də nəzər salsaq görərik ki, bərpaolunan enerji növlərinin bu bölgədə çox böyük potensialı var. Onların arasında "Xudafərin" və "Qız Qalası" su elektrik stansiyaları ən böyük potensiala malik olacaqdır. Bu stansiyaların tikintisi ilə bağlı İran İslam Respublikası ilə razılığa gəlmişik".

Yeri gəlmişkən, yaxın gələcəkdə Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Şuşa, Ağdam və Kəlbəcər rayonlarında, ümumilikdə 308 kilometr elektrik verilişi xəttinin çəkilməsi və yeni yarımstansiyaların tikilməsi ilə 110 kilovoltluq şəbəkənin yaradılacağı nəzərdə tutulub. Bu ərazilərin təbii qazla təminatı ilə bağlı hazırlanan proqramda isə SOCAR tərəfindən müxtəlif diametrlərdə 416 kilometr magistral qaz xəttinin çəkilməsi də proqnozlaşdırılıb.

Xatırladaq ki, Prezidentin tapşırığına əsasən ən qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, Qarabağ regionunda bərpaolunan enerji mənbələrindən istifadə, enerji səmərəliliyi, ekoloji təmiz texnologiyalar, o cümlədən, nəqliyyat vasitələrinin tətbiqi və digər məsələləri əhatə edəcək yaşıl zona, yaxud "Yaşıl məkan" konsepsiyasının hazırlanmasına başlanılıb. Bu istiqamətdə Beynəlxalq Bərpaolunan Enerji Agentliyi ilə müzakirələrin aparılması diqqət mərkəzində saxlanılıb.

Bu ərazilərdə 4 min meqavatdan çox Günəş, 500 meqavatadək külək enerjisi potensialının mövcudluğu qiymətləndirilib. Kiçik su elektrik stansiyalarının inventarlaşdırılması işinə də başlanılıb. İlkin məlumatlara görə, 30-a yaxın bu cür stansiya yararsız hala salınıb.

Azərbaycan Prezidenti çıxışında su elektrik stansiyalarının tikintisi ilə paralel olaraq, azad edilən bütün digər torpaqlarda bərpaolunan enerji növlərinin və yerlərin müəyyənləşdirilməsi prosesinə start verilməsi ilə bağlı artıq göstəriş verdiyini də vurğulayıb.

### Qarabağ gələcəkdə "yaşıl enerji" zonası kimi də tanınacaq

Prezident İlham Əliyev çıxışında bildirib ki, azad edilmiş torpaqlar gələcəkdə "Yaşıl enerji" zonası olacaq: "Mən artıq xarici və yerli investorları dəvət etmişəm. Onu da bildirməliyəm ki, bütün əsas işləri dövlət olaraq biz özümüz görürük və görəcəyik. Xarici və yerli investorlar investisiya qoymaqla həm öz biznes maraqlarını təmin edə bilərlər və həm də Azərbaycanı uzunmüddətli, dayanıqlı, ucuz və ekoloji cəhətdən təmiz enerji növləri ilə təmin etmək üçün öz sözlərini deyə bilərlər.

Bizim planlarımız bundan ibarətdir. Kəlbəcər və Laçın rayonlarında külək enerjisinin çox böyük potensialı var. Zəngilan, Cəbrayıl rayonlarında daha çox Günəş enerjisinin böyük potensialı var. Artıq ilkin tədqiqatlar aparılıb və beləliklə, biz enerji generasiya güclərimizi, ötürücü xətlərimizi yenidən quraraq Qarabağı "Yaşıl enerji" zonasına çevirəcəyik…".

Azərbaycanda, xüsusilə işğaldan azad edilən ərazilərdə "Yaşıl enerji" zonasının yaradılmasına mühüm önəm verilməsi təsadüfi deyil. Çünki hazırda bütün dünyada elektrik enerjisi istehsalının dominant mənbəyini ənənəvi enerji mənbələridir. Bununla belə bir çox yerlərdə bərpaolunan enerji mənbələrindən elektrik enerjisi istehsalı artmaqda davam edir. Ölkəmizdə də enerjinin bu növünün istehsalı diqqət mərkəzində saxlanılır.

Prezident İlham Əliyev 2030-cu ilə qədər elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrinin payının 30 faizə çatdırılmasını mühüm vəzifə kimi müəyyənləşdirib. Dövlət başçısının imzaladığı müvafiq sərəncamlar nəticəsində Azərbaycanda energetikanın digər sahələrində olduğu kimi, bərpaolunan enerji mənbələrindən istifadə sahəsində də əlverişli investisiya mühiti yaradılıb, özəl sərmayələrin cəlbi və irimiqyaslı layihələrin icrası istiqamətində ardıcıl tədbirlər həyata keçirilməsinə başlanılıb.

Qarşıdakı 10 il ərzində təqribən 1500 meqavat həcmində yeni gücün istifadəyə verilməsi nəzərdə tutulur. Bu vəzifənin məhz özəl investisiyalar hesabına reallaşdırılması planlaşdırılır.

Prezidentin "Bərpaolunan enerji mənbələrindən istifadə sahəsində pilot layihələrin həyata keçirilməsi tədbirləri haqqında" 5 dekabr 2019-cu il tarixli Sərəncamı ilə yaradılan komissiya da fəaliyyətini uğurla davam etdirir.

Dövlət başçısının tapşırığına əsasən, işğaldan azad edilən ərazilərdə "Yaşıl enerji" zonasının yaradılması məqsədilə bərpaolunan enerji mənbələrindən istifadə ilə bağlı özəl investisiyaların cəlb olunması üçün investorlarla müzakirələr aparılır.

Qeyd edək ki, Prezident İlham Əliyev çıxışlarında düşməndən təmizlənən torpaqların "Yaşıl enerji" zonasına çevriləcəyini dəfələrlə bildirib. Erməni işğalından azad olunan ərazilərin dövlətimizin başçısının birbaşa təşəbbüsü və tapşırıqları ilə nəinki bərpa edilməsi və yenidən qurulması planlaşdırılır, hətta orada "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının reallaşdırılması da nəzərdə tutulur. Hazırkı pandemiya şəraitində dünya iqtisadiyyatında böyük problemlərin yarandığı bir dövrdə Azərbaycan Prezidentinin bu təşəbbüsü bir daha dövlətimizin gücünü və qüdrətini göstərir. İnşa ediləcək 200 evdən ibarət kəndin enerjiyə olan tələbatı yalnız alternativ enerji mənbələrindən əldə olunacaq.

### Horadiz-Zəngilan-Ağbənd dəmir yolu mühüm strateji önəm daşıyır

Prezident İlham Əliyev səfər çərçivəsində Füzuli rayonunda Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlqoyma mərasimində iştirak edib.

Ümumi uzunluğu 100 kilometr olan bu dəmir yolu xəttinin strateji əhəmiyyəti olduqca böyükdür. Çünki bu nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının azad olunan torpaqlara gediş-gəlişinin təminatında mühüm rol oynayacaq, eyni zamanda, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsinin yaranmasına böyük töhfə verəcək. Dövlətimizin başçısı bununla bağlı deyib: "Horadizdə Horadiz-Zəngilan-Ağbənd dəmir yolunun təməl daşı qoyuldu. Bu dəmir yolunun çox böyük strateji əhəmiyyəti var. İlk növbədə ona görə ki, bu dəmir yolu azad edilmiş torpaqlara həm vətəndaşların gəlməsi, həm də yüklərin daşınması üçün böyük əhəmiyyətə malik olacaq. Digər tərəfdən, bu dəmir yolu Naxçıvana gedəcək. Noyabrın 10-da imzalanmış Birgə Bəyanatda Naxçıvan dəhlizinin yaradılması ilə bağlı xüsusi müddəa var. Artıq bu işlərə start verildi. Bizim təşəbbüsümüzlə həyata keçirilən bu layihə, əminəm ki, icra ediləcək. Uzun fasilədən sonra Azərbaycan və onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası dəmir yolu ilə bir-birinə bağlanacaq və beləliklə, bizim həm strateji, həm iqtisadi, həm də siyasi məqsədlərimiz həyata keçiriləcək".

Prezident İlham Əliyev çıxışında Vətən müharibəsində parlaq qələbəmizlə həm düşməni torpaqlarımızdan qovduğumuzu, bütün dünyaya xalqımızın, dövlətimizin qüdrətini, xalqımızın əyilməz ruhunu göstərdiyimizi, həm də ölkəmizin ərazi bütövlüyünü bərpa etdiyimizi vurğulamaqla bərabər, Azərbaycanın gələcəyi ilə bağlı strateji hədəflərə çatmaq üçün əməli addımlar ataraq önəmli sənədləri imzaladığımızı diqqətə çatdırıb. Bildirib ki, ötən il noyabrın 10-da imzalanan Birgə Bəyanat Laçın, Kəlbəcər və Ağdam rayonunun qaytarılmasını təmin edib, bir güllə atmadan bizim bu torpaqlara qayıtmağımızı şərtləndirib. Eyni zamanda, Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanla birləşməsi də məhz həmin Birgə Bəyanatda təsbit olunub.

Azərbaycan Prezidenti daha sonra qeyd edib ki, indi təməli qoyulan bu dəmir yolu infrastrukturu Türkiyəyə qədər uzanacaq və beləliklə, Azərbaycanı Türkiyə ilə birləşdirən ikinci dəmir yolu şəbəkəsi yaradılacaq: "Biz üç il yarım bundan əvvəl Bakı-Tbilisi-Qars dəmir yolunu istismara verdik. Bu da tarixi nailiyyət idi. Tarixdə ilk dəfə biz Azərbaycanı və Türkiyəni dəmir yolu ilə birləşdirdik. İndi isə ikinci dəmir yolu çəkiləcək və eyni zamanda, bu yoldan bütün bölgə ölkələri istifadə edə bilərlər. Bölgə ölkələri bu yolun tikintisinə də böyük maraqla yanaşırlar. Demək olar ki, bizim bölgəmizdə yerləşən ölkələr bu layihəyə öz müsbət qiymətini vermişlər".

Ölkə rəhbərinin vurğuladığı kimi, Azərbaycanla bərabər, Türkiyə, Rusiya, İran, Ermənistan, bir sözlə, bütün bölgə ölkələri bu dəmir yolundan xeyir görəcəklər. Bu dəmir yolu Azərbaycanın geosiyasi əhəmiyyətini, iqtisadi gücünü artıracaq.

### Azərbaycan erməni faşizminə bir daha başını qaldırmağa imkan verməyəcək

Laçın rayonu 1992-ci il mayın 18-də Ermənistan tərəfindən işğal edildi. Həmin dövrdə respublikamızın daxilində ictimai-siyasi böhran, anarxiya hökm sürürdü. Müəyyən qüvvələr hakimiyyət uğrunda mübarizə aparırdı və bu prosesdə Azərbaycan Xalq Cəbhəsi əsas rol oynayırdı. Belə bir şəraitdə torpaqlarımızın düşməndən qorunması həmin qüvvələri düşündürmürdü. Onlar üçün əsas məqsəd iqtidara gəlmək idi. Beləliklə, 1992-ci il mayın 15-də AXC-Müsavat cütlüyü hakimiyyəti ələ keçirdikdən cəmi 3 gün sonra – mayın 18-də Laçın rayonu Ermənistan tərəfindən işğal olundu. Bir sözlə, Laçın AXC-Müsavat cütlüyünün hakimiyyətə gəlmək üçün apardığı mübarizənin qurbanına çevrildi.

Laçının işğal edilməsi ilə ölkəmiz üçün yeni faciələrin, torpaq itkilərinin əsası qoyuldu. Çünki bu rayon böyük strateji əhəmiyyət kəsb edir. Belə ki, Ermənistanı Dağlıq Qarabağla birləşdirən yol məhz buradan keçir. Laçının işğalından sonra Ermənistan üçün bu yol açıldı. AXC-Müsavat cütlüyü hakimiyyəti isə Laçını nəinki işğaldan azad edə bildi, əksinə, digər torpaqlarımız da erməni işğalına məruz qaldı. Nəhayət, 28 ildən sonra 44 günlük Vətən müharibəsi nəticəsində rayon düşməndən təmizləndi.

Azərbaycan Prezidenti bu tarixi məqamları bir daha xatırladaraq, deyib: "Laçın rayonunu satanlar, Şuşanı satanlar eyni adamlardır. Mən bunu demişəm. Bir daha demək istəyirəm ki, Azərbaycan xalqı bunu bilsin və heç vaxt unutmasın. AXC-Müsavat mənfur cütlüyü hakimiyyətə gəlmək üçün bu torpaqları düşmənə satıb. O vaxt hakimiyyəti yıxmaq üçün Bakıda mitinqlər təşkil edirdilər, çaxnaşma təşkil edirdilər, hakimiyyətə gəlmək üçün istənilən satqınlığa hazır idilər və bu satqınlığı etdilər. Şuşanı boşaltdılar. Halbuki onların nəzarəti altında qüvvələr var idi. Şuşa ermənilər oraya girəndə, faktiki olaraq, boş idi. Şuşanı heç kim müdafiə etmirdi. Sonra Laçın rayonunu da satdılar və ondan sonra heç bir ay keçməmiş hakimiyyətə gəldilər. AXC-Müsavat cütlüyü bu satqınlığı, bu xəyanəti edib, bu cinayəti törədib. 1993-cü ilin aprelində Kəlbəcər də işğal altına düşəndən sonra qorxaqcasına qaçıb gizlənib, fərarilik edib…".

Dövlətimizin başçısı çıxışında bu gün Ermənistanda baş qaldırmağa çalışan revanşist qüvvələrə xəbərdarlıq da edib. Onların ölkəmizi növbəti təxribatlarla, növbəti müharibə ilə hədələməyə çalışdıqlarını xatırladaraq, bildirib ki, Azərbaycan erməni faşizmini bir daha başını qaldırmağa imkan verməz: "Biz erməni faşizmini məhv etmişik. Düşməni öz doğma torpaqlarımızdan qovmuşuq. Onları torpaqlarımızdan rədd etmişik. Ermənistan ordusunu demək olar ki, məhv etmişik. Ermənistan ordusu yoxdur, dağılıb. Həm texnika dağılıb, həm canlı qüvvə dağılıb. Özləri etiraf edirlər ki, müharibə zamanı onların 10 min fərarisi olubdur. Azərbaycan Ordusunda bir dənə də fərari olmayıbdır. Bu, xalqımızın, Ordumuzun yüksək mənəvi ruhunun təzahürüdür. Aparılan siyasətin təzahürüdür. Biz döyüş meydanında qələbə qazandıq. Biz bu torpaqları vuruşaraq işğalçılardan azad etmişik…".

*Vaqif BAYRAMOV,*
*"Xalq qəzeti"*